Drucken Schließen

# Erize

Von: **Rustem azeri** (nes.ben@hotmail.de)
Gesendet: Mittwoch, 26. Mai 2010 17:18:33
An: Insan hakgi az (ombudsman@ombudsman.gov.az)
Anlagen:
Ombusdman 26.05.10.pdf (6,6 MB)

Azerbaycan Respublikasinin insan huquqlari uzre muvekkilinin ( Ombudsmanin ) Aparatina
Saxsen Elmira xanim Suleymanovaya.

Azerbaycan vetendaslarinin insan huquqlarinin mudafiyesini temin eden Elmira Suleymanova xanima, kucelere atilan azərbaycanin vetendasi ismail rustem tarafindan **ariza**
Cox hormetli Elmira xanim, azerbaycan vetendaslarinin insan huquqlarini qoruyan bir teskilatin sedri olaraq nezerinize catdirmaq isteyirem ki, s**ancaga tikip yoladigim mektubda** gosterdiyim sebebler uzunden men 02.04.2010 tarixinde Almanyadan basqa dovlete gacmaga mecbur qaldim !!!

Size s**ancaga tikip yoladigim** erizemi, **Avropa insan haklari mehkemesine**, **Birlesmis milletler Teskilatina**, **Mehriban xanim Aliyevaya** hemcinin **Azerbaycan Prezidenti İlham Aliyev cenablarina** catdirmanizi sizden son derece xais edirem !!!

Bu erizenin kopyasini www.rustemazeri.com web saytimda **4) Organisation** qovlugunda **Azerbaycan** yazilan qovlugda **30) – E-mail Ombusdman 26.05.2010** acarag oxuya bilersiz.

Hormetle Azerbaycan vetandasi

Rustem Azeri

---

Sicher und anonym surfen? Der Internet Explorer 8 macht es möglich!

İsmail Rustem, Türkiy və Rusiya
Gedəcəyi ünvan :
Azərbaycan Respublikasının İnsan Hüquqları
üzrə müvəkkilinin ( Ombudsmanın ) Aparatına
Şəxsən Elmira xanım Süleymanovaya

**RUSTEM-AZERI**

**Ismail Rustem**
**Türkiyə və Rusiya**

E-mail: nes.ben@hotmail.de
www.rustemazeri.com

Berlin, 26 May 2010

Azərbaycan vətəndaşlarının insan hüquqlarının müdafiyəsini təmin edən Elmira Süleymanova xanıma, küçələrə atilan azərbaycanın vətəndaşı İsmail Rüstəm tərəfindən

## ƏRİZƏ

Çox hörmətli Elmira xanım, azərbaycan vətəndaşlarının insan hüquqlarını qoruyan bir təşkilatın sədri olaraq nəzərinizə çatdırmaq istəyirəm ki, aşağıda göstərdiyim səbəblər üzündən mən 02.04.2010 tarixində Almanyadan başqa dovlete gaçmağa məcbur qaldım !!!

Bu ərizəmi, **Avropa İnsan Hakları Məhkəməsinə**, **Birləşmiş Millətlər Təşkilatına**, **Mehriban xanım Əliyevaya** həmçinin **Azərbaycan Prezidenti lham Əliyev cənablarına** çatdırmanızı sizdən son dərəcə xaiş edirəm !!!

**SƏBƏB-1**
Alman məhkəməsinin ( **Nr: 50 XVII 7034** ) heç bir doxdor rəyi olmadan '' psixi-Kişisəl-Paranoid'' diyagnozu ilə, hüquklarımın idarə edilməsini başqa insanlara (xəstəbaxıcılarına) verərəg, insan hüquqlarımı gobutcasına pozan, 05.05.2009 və 15.12.2009-tarixli qəralarına ehtiraz edərək.

**SƏBƏB-2**
02.11.1999-il şikayetimin, 2 alman vətandaşı ( xəstəbaxıcılarının ) qeyri-qanuni yolar ilə 2009-ilin Avgust ayında məhkəmədən ( **Nr: 2 Ars 346 / 09** ) geri çəkmələrinə ehtiraz edərək.

**SƏBƏB-3**
12-il ərzində AFR-da salındığım çıxlmaz vəziyətlərə, psixoterorlara, isgəncələrə dözmədiyimdən.

**SƏBƏB-4**
Azərbaycan dövlət təşkilatlarının bəzilərinin, başqa ölkələrin xətirlərinə dəyməməg məgsədi ilə, xaricdə yaşayan öz vətandaşlarının halına lageyit qalması üzündən.

### SƏBƏB-1 üçün gısa açıqlama:

1. Mən Almanyadakı 11-ilik ədalətsizliyə garşı dayanıb hak ədalət axtardım və bir çox hakimlərin, məmurların günahkar olduxlarını, dəlillərlə sübut edərək onların ozlərinə gəbul etdirməyi bacardım. Həmçinin bu cinayətlərə Avropa İnsan Hakları Məhkəməsindədə ( **Nr. 2968 / 09** ) baxılmasına 2009-cu ildə nail ola bildim. Lakin Avropa İnsan Hakları Məhkəməsindədə davanın birdaha açılmasından narahat olan günahkar Doktor, Məmur və Hakim dəstəsi, öz cinayətlərinin üstü açılmaması üçün, ən son cinayetlerinə əl atdılar. Beləki 05.05.09-cu ildə məhkəmə ( **Nr 50 XVII 7034 / 09** ) mənnən xəbərsiz qurduğu iclasda, mənim fikirimi almadan, mənim toxunulmaz olan

hüguklarımı 2 alman xəstəbaxıcılarına verdi. Məhkəmənin bu geyri qanuni gərarına, mən dərhal öz etirazımı bildirməyimə baxmayaraq, hakim bu xəstəbaxıcılarını ancaq 16.10.2009-cu il tarixində, yəni 5 aydan sonra ləğv etmişdir. Xəstəbaxıcısının 16.10.2009-cu il tarixli hesabatı, mənə ancaq 03.12.2009-cu il tarixində verildi. Bu hesabatdan məlum oldu ki 5 ay içində, böyük sensasiya olan 1999-cu il polislərin məni döyməlırinə garşı açılan davanı, BGH ( **Nr: 2 Ars 346 / 09** ) məhkəməsinin tələbi ilə, xəstəbaxıcılarına geri çəkdirmışlər. Mən 07.12.2009-cu ildə buna qəti etirazımı bildirsəmdə, məhkəmələr ( **Nr: 50 XVII 7034** , **Nr: 87 T 20 / 10** , **Nr: 2 Ars 346 / 09** ) buna məhəl qoymadı. Beləliklə, 02.11.1999-cu il tarixdə epilepsiya keçirdiyim halda yardım edilməməsi və Alman polisləri tərəfindən toxunulmaz qüruruma, şərəfimə zid hərəkətlə, məni zorla çılpaq soyundurub və vəhşicəsinə döydükləri cinayəti, **1999**-cu ildən yazdığım şikayətimə, Alman hüquk mühafizə organları tərəfindən gərəksiz bəhanələr göstərərək 10 ildə açılmamasını, **2009**-cu ildə qanunsuz veridikləri alman xəstəbaxıcılarının əli ilə geri çəkdirdilər. Və 15.12.2009 - ( **Nr 50 XVII 7034 / 09** ) qanunsuz məhkəmə qərarına əsasən, mənə hətda bu barədə nə soruşmağa nə də ki şikayət etməyə icazə verilmir!!!

2. Mən 09.12.200**9** tarixdən 15.12.20**10** gədər azərbaycanda olduğum vaxt ərzində, AFR məhkəməsi ( **Nr: 50 XVII 7034 / 09** ) 15.12.200**9** tarixində, **heç bir həkim rəyi olmadan**, geyri ganuni yollar ila, mənim guya ''Psixi-Kişisəl-Paranoid'' xəstə olduğumu göstərmiş və heç bir məhkəmədə, ozəliklə Avropa İnsan Hakları Məhkəməsindədə nə iştirak edə biləcəyimə, nə şikayət edə biləcəyimə, həmçinin maddi finansınımada özüm kontrol və istifadə edə bilməyəcəyimə göstərərəg gərar vermişdir.

3. Mənim məhkəmələrdə fikrimi deyə bilməyəcəyim və öz finansımı idarə edə bilməyəcəyim üçün mən elə ağır psixi xəstə olmalıydım ki, mənim yerimə başqası qərar versin. Ancaq mən bu qərar verilərkən özüm yol xərcimi çəkərək, Berlindən somalyot ilə İstanbula, oradanda avtobus ilə Azərbaycana gəlmişdim, həmən yollarlada öz finansımı idarə edərək geri qayıtmışdım.

4. Məhkəmə tərəfindən mənim evimə 20.08.2009 yollanan dövlətin psixiator ekspertinin qoyduğu ''psixi-Kişisəl-Paranoid'' diaqnozuna qarşı, mən 12.11.2009-cu il tarixdə, bu diagnozun geyri qanuni olduğunu dəlillərlə sübut edərək öz etirazımı bildirdim. Məhs bu səbəbdəndə 27.11.2009-cu ildə məhkəmə salonuna ekspert birdaha dəvət edildi. Həmin gün Advokat Tomasın və tərcüməçi Dr. Ələkbərovun şahidlik etdiyi prosesdə, Ekspert öz qoyduğu ''psixi-Kişisəl-Paranoid'' diaqnozun doğru olmadığını etiraf etməyə məcbur qaldı. Bu etiraf 27.11.2009-cu il tarixli məhkəmə protokolunda yazıldı!!! Belə bir vəziyətdə məhkəmə, heç bir həkim rəyi olmadan, hansı doxtor rəyinə dəyanaraq 15.12.2009-cı ildə ''psixi-Kişisəl-Paranoid'' xəstə diaqnozuna gərar verib?

5. Mən müəyyən səbəblər uzundən 2006-cı ildən etibarən heç bir psixiator həkim ilə görüşmürəm. Bu səbəblər ondan ibarətdirki, AFR-ın məni qanunsuz pasport statusunda, yəni **§ 25 Abzas 5** statusunda tutmağla, məni 2006-cı ilədək psixiator həkimlərdən asılı vəziyyətdə saxlayıb. Belə ki, bir insan **§ 25 Abzas 5** statusuna görə psixiator həkim müalicə etdiyi vaxta qədər Almanya ölkəsində qala bilər. Ancaq mənim 2005-ci ildə məhkəmədə utduğum ( **Nr: 528 Qs 49 / 03 (251 b / 251 a Ds ) 52 Js 7 / 00 (349/00)**) qərara görədə **§ 25 Abzas 5** status dəyişməli idi. Qovulma statusunda Almanya dövləti məni qorxudub, ağzımı bağlayıb, danışma hüququklarımı həkimlərə vermişdi. 2006-cı ildə AİDS xəstəliyimi mən zorla öyrənə bildiyimdən sonra, bu

qanunsuz salındığım psixiator həkim təsirindən imtina edərək canımı qurtara bilmişdim. Çünki, AİDS xəstəsində ( yəni-spid xəstəliyində ) qovulma statusu verilə bilinməzdi!!!

Mən psixoterorlara məruz galdığım vaxtlarda mənə heç bir yardım göstərilməmiş və problemlərlə baş-başa buraxılmışdım. Lakin zor bəla ilə özümdə bir az güc toplayarag problemləri aşıb və cinayətlərin üstünü açıdığımda, nədənsə indi güya kömək məgsədi iylə məni məhkəmələrdən uzaglaşdırırlar.

Əlbətdəki mənə olunan 12 illik psixoloji terror nəticəsində mənim psixi sağlam qalmam, depresyalarımın olmaması mümkün deyil. Ancaq mən o dərəcədə dəli deyiləm ki, mənim əvəzimə hüquqi qərarı başqası versin. Dəli bir insan bu qədər cinayətlərin üstünü aça bilməzdi. Məhkəmənin 15.12.2009-cu il tarixli həkim rəyi olmadan verdiyi qanunsuz ( Nr 50 XVII 7034 / 09 ) bu qərarı, sadəcə mənim ağzımı yenidən bağlayıb. Beləliklə Avropa İnsan Haqları Məhkəməsində, həmçinin başqa sözü keçən təşkilatlarda, mənim yerinə başqalarının danışmasını, Almanya bir daha təşkil edib. Mənim alman dilini qrammatik cəhətdən bilmədiyimdən və mənə qarşı pozulan qanunların bərpasında, hüquqi advokatların qanuni yollarla tapılmasında, məktubları oxuyub başa düşməmdə və cavab yazılmamda, mənim xəstə baxıcılarının köməyinə ehtiyacım var. Mənə kömək etmək və ya mənim yerimə qərar vermək iki ayrı-ayrı işdir. Birdə ki, bütün sayılan problemləri mən tək başıma həll etmişəm, indi isə qanunları pozan cinayətkarların cəzalanmasını tələb edilməsi gərəkdiyində, mənim hüquqlarım məhkəmə tərəfindən əlimdən alınır. Bu mənə kömək deyil, qanun pozanların cinayətinin üstünün açılmamasına əngəl çıxartmaqdır. Nəzərinizə çatdırmaq istəyirəm ki, 2008-ci ilin Noyabırından ehtibarən polis əməkdaşları məni bir neçə dəfə də zorilə dəlixanaya salıblar. Bütün bu hadisələrdə mən etiraz edərək aclıq aksiyalarına başladım, ekspert tələb etdim. Mənim neytral ölkələrdən ekspert gətirilmə tələbim, həkimləri məni yoxlayıb dəli olmadığımı təsdiq etdi. Bundan sonra məni dəlixanadan buraxıblar.

Bunuda bildirməm gərəkirki, Almanyadan gaçacağımı 2010-cu ilin Fevral ayında xəstəbaxıcısına bildirdim və təcili salıg suğortamı alınmasını xaiş elədim. Lakin xəstəbaxıcısı Birant bəy bu hüqugi hakgımdan ehtiraz etdi. Onun üçündə mən salıg suğortam olmadan gaçmağa məcbur qaldım. Uzun illərdir Almanya mənim hansı xəstəlikləri, hansı illərdə, hansı yolarla duçar olduğumu oyrənməyimə əngəllər çıxardırılır !!! Hal hazırda 17 ağır xəstətəliklərimnən başqa ölkələrdə, salığ suğortam olmadığından muanə və mualicə ala bilmədən əziyət çəkirəm !!! Hesabıma gələn aylıg <u>330 EUR</u>-ilə İstanbul kimi şəhərdə ev kiramı, həkim muainəsi və dərman xərcimi, yiyəcək, nəqliyat və başqa xərclərimi təmin edərək yaşamam münkünmü? **Bu vəziyətin axırı mənim üçün intaharnan gurtaracağınada, dikgətinizə çatdırmalıyam** !!!

**SƏBƏB-2 üçün gısa açıqlama:**

Alman polislərinin məni zorla çılpax soyundurub, alçaldılaraq döyməladmə 02.11.1999 tarixində şikayət etməyimə baxmayaraq, Almanyanın üst məhkəmələrindən sayılan Kammergericht ( 1 Ws 287 / 07 ) 11.12.2007-ci ilin dekabrında, məni məhkəmə salonuna çağırıb soruşdurmadan, hətda mənə bu məhkəmə iclası barədə xəbər belə vermədən çıxartdıxları gərarda, məni **<u>şikayət etməməmdə</u>** günahkar çıxardıblar. Yani **guya** mən şikayət etmədiyim üçün, bunlarda budavaya baxa bilməyiblər. Bir başqa sözlə desək, bunların bu davanı aça bilməməklərində gunahkar mənəm, çünkü **guya** mən vaxdında şikayət etməmişəm. ( İnsanı hansı yolarnan dəli edilər !!! Həm şikayətinə baxmasınlar, həmdə şikayətin ört-bastır edilmə səbəkarını sənin üstüvə atsınlar. ) Ancaq Kammergericht məhkəməsindən üst məhkəmələrə, Bundesgerichthofa ( 2 ARs 346 / 09 ) və Bundesverfasungsgerichte ( 2 BvR 2067 / 08 ), nədən mənim şikayətimə 02.11.1999 tarixindən bu yana baxılmayıb sualıma heç bir cavab ala

bilmədən, 2 alman vətəndaşı olan xəstəbaxıcılarının əli ilə, şikayetimi, qeyri-qanuni yollarla, geri çəkdirmişdirlər. Dünyanın heç bir yerində hüquq mühafizə orqanları tərəfindən görünməyən yöntəmlərnən cinayət ört-basdır edildi. Xatırladıram ki bu şikayət 02.11.1999-cı ildən bu yana Nr: **991104 / 5190-7** ( Nr: **88 T XIV 298 / 99 B** içində salig davasıda yer alıb ) Nr: **52 Js 4686 / 07** Nr: **1 Zs 2509 / 07** Nr: **84 AR 17 / 07** Nr: **1 Ws 287 / 07** Nr: **2 ARs 346 / 09** Nr: **2 BvR 2067 / 08** nömrələrlə, huqug muhafizə orqanlarının masalarında olmasına baxmayaraq, AFR huqug muhafizə orqanları tərəfindən, davanın açılmaması üçün gərəksiz bəhanələr gətirilmiş və zorla ört basdır edilmişdir !!! Sizə **www.rustemazeri.com** veb adresindəki **09) COURT Germani/** qovluğunda yerleşen **Dokument 09/** yoxlamanızı, cinayəti incələmənizi və Avropa Insan Haqqları Məhkəməsindən, günahkarların cəzalanmasına, madi və mənəvi təzminatın ödənilməsinə qərar verməlerində, azərbaycan vətəndaşının hakgını axtaran bir dövlət kimi, tələb etmənizi xahiş edirəm.

**SƏBƏB-3 üçün gısa açıqlama:**

Məlumatınıza onu çatdırmaq istəyirəm ki, mən AFR - da yaşadığı 1998-ci ildən etibarən dövlət hakim, məmur və polislər tərəfindən ağır psixiterrorlara məruz qalmışam. Belə ki, 1998-ci ildə məni qanunsuz olaraq türməyə salmışlar və ağır sətəlcəm olduğum üçün, gış aylarında küçəyə atılmışlar. Möhkəm sətəlcəm xəstəsi oduğum üçün mən dövlət dairələrinə rəsmi baş vurmağıma baxmayaraq, mənə AFR - qanunlarında nəzərdə tutulan yardımlar edilməmiş və müalicəmə əngəllər çıxardaraq cinayətlər törədilmişdir.

1999-cu ildə bir daha eyni iddiya ilə məni türməyə atıblar. Bir il əvvəl sətəlcəm, miningit və vərəm xəstəsi olmam üzündən artıq sol ciyərimin çürüdüyünü və sətəlcəmdən irəli gələn, ( beyninə təsir edən ) epilepsiya vəziyyətimi görən dövlət, öz cinayətlərini ört-basdır etməg məqsədi ilə tədbirlər almağa başlamışlar. Hətda qanunsuz saldıqları türmədə belə 02.11.1999-cu ildə epilepsiya keçirdiyim halda mənə heç bir yardım edilməmiş, əksinə polislər tərəfindən mənim toxunulmaz qürur və şərəfimə toxunaraq, zorla çılpaq soyunduruldum, vəhşicəsinə döyüldüm. Həmən tarixdə, yəni 1999-cu ildə mənim bu cinayət barədə şikayət etməyimdən narahat olan dövlət adamları, mənə qarşı 2000-ci ildə qanunsuz məhkəmə qərarı çıxarıblar. **( Nr: 528 Qs 49 / 03 (251 b / 251 a Ds) 52 Js 7/00 ( 349 / 00 ))**

Həmən bu qərara dayanaraq almanyada yaşamaq statusu, sosial yardımı və iş icazəsi mənə məhkəmələr tərəfindən qadağan qoyuldu. Bundan başqa sətəlcəm, miningit, epilepsiya və vərəm xəstəliklərimin ortaya çıxmaması üçün, məhkəmə **( Nr: VG 32 A 594 00 )** AFR-qanununda olmayan, doktora getməmi və müalicə olunmağımı, qadağan edən qərar verib. Həmçinin 23.10.2000 bu ədalətsiz məhkəmə qərarında insan hüquqlarına zidd sözlərdən istifadə edərək məni rəsmən öldürülməm göstərilib. Müalicəmə qadağan qoyulan həmən qərarın son cümləsi bu sözlərlə tamamlanır ( hətda bu adam özü könüllü öz ölkəsinə getməyə razılıq versə belə, və bizim dövlət həkimləri tərəfindən göstərilsə ki, bu insan artıq ağır xəstə olduğu üçün ölkəsinə gedə biləcək vəziyyətdə deyil və az da olsa müalicə olmalıdır ( yəni ölməməsi üçün ) hətta bucür vəziyyətdə belə, bu məhkəmə qərarı quvvədə qalır. Yəni dövlət həkimləri öldüyümü göstərsə belə, sağalmağa imkan verilməsin və son nəfəsinə qədər öldürülsün. Bu gün AFR dövləti göstərir ki, guya mənə humanitar yaşamaq hüququ verilib. Burada hansı demokratiyadan, humanitarlıqdan və ya insan hüququndan söz etmək olar?

Mən 2001-ci ildə həkim diaqnozlarına dayanaraq, vərəmdən müalicə olunmam üçün məhkəmədən icazə istədim. Lakin məhkəmə **( Nr: VG 32 A 487 / 01)** mənə 04.09.2001 də yazdığı məktubunda göstərdi ki, mənə vərəm xəstəliyindən müalicə edilmənə icazə verilməsi üçün, gərək psixiyator həkimdən psixi xəstə olduğumu və öz ölkəmdə bunun müalicəsi olmadığını göstərən araiş gətirim. Ancaq bu araiş olduqdan sonra mənə vərəm xəstəliyimin müalicəsinə icazə veriləcək. İstədiyi psixiyatri araişi alan məhkəmə, mənə yənədə sətəlcəm, miningit və vərəm xəstəliklərimdən müalicə edilməyimə icazə vermədi. Sual, əgər mənə

sətəlcəm, miningit və vərəm xəstəliklərimdən müalicəmə icazə verilməyəcəkdirsə, nə üçün psixi xəstə kimi intihar edə biləcək diagnoz istənilmişdir? Birdə ki, psixiator həkim, qanunlara görə xəstə ilə ən azı 3 ay görüşüb kontrol etdikdən sonra ilk psixi diyaqnozunu qoya biləcəyini bilən məhkəmə, nə üçün ancaq bir görüş ilə belə bir diyagnozu yazdırdı?

Hakim qərarları ilə işləməyə, yardim almağa qadağan qoyulan, demokratik hüquq dövləti kimi tanınan almanyada, 5 il evsiz - eşiksiz küçələrdə qürur və mənliyim sındırılaraq yaşatdırılırdım. Bütün bu qanun pozuntuları məndə 16 çarəsi olmayan xəstəliklərə yol açdı, 2003 cü ildə infakt keçirib, 2004 cü ildə Avropa İnsan Hakları məhkəməsinə şikayət etməyim ilə bərabər AFR parlamentinin qarşısında intihara qalxdım. Bu hadisədən sonra, yenədə dövlət təşkilatları tərəfindən törədilən cinayətlər AFR-in 80 məhkəməsində ört basdır edildi. Onuda nəzərinizə çatdırmalıyam ki, 2004-cü ildən Avropa İnsan Hakları Məhkəməsində ( **Nr.746 / 04** ) - ( **Nr. 6859 / 08** ) - ( **Nr. 2968 / 09** ) davalar açılmağına baxmayaraq, bu günə qədərdə davanın baxılması uzadılır.

Məndəki depresiya və psixi xəstəliklərimin səbəbini məhz mənə qarşı qanun pozulmalarından, böhtan və iftiradan irəli gəldiyini bilən Charite psixiatri xəstəxanası, bu psixoterorlara göz yumub və krizlərə kənardan baxıb. Artıq təkcə məmur, polis və ya Məhkəmə deyil, həm də həkimlərdə cinayətin açılmamasında maraqlı olublar. Məhz bu səbəbdən də dil bilməyən, qanun bilməyən, kimsəsiz bir insana, bir çox təşkilatlar tərəfindən gecə-gündüz hücumlar olub. Belə bir halda insanın ya intihar edəcəyi, ya da dəli olacağı dəqiq düşünülüb. Hər iki vəziyyət mənim üçün bir sui-qəst, AFR dövlətindəki cinayət qurupu üçünsə bir qurtuluş yolu götürülüb. Unutmayın ki, 2003-cü ildən 2006-cı ilə qədər Charite xəstəxanasında ayda 2 dəfə, guya ki, müalicə edildim. Məhs bu 3 il ərzində mən psixi terrorlara məruz olub, evsiz-eşiksiz vəziyyətdə yaşayıb, 16 çarəsiz xəstəlik tapıb, infakt keçirib, intihara qalxdım və ssayrə. Psixoterrordan ibarət olan belə bir vəziyyətdə, cinayət ört-basdır etməkdən başqa, mənə hansı müalicə edilib ki ?

Mənim tələb və tezigim ile 2005-cı ildə məhkəmə, 2000-cı ilde verdiyi qərarının ( **Nr: 528 Qs 49 / 03 ( 251 b / 251 a Ds ) 52 Js 7 / 00 ( 349 / 00** ), səhf qərar olduğunu qəbul etmişdir. Lakin 5-ilik sehvlərini qəbul etdikdən sonrada, Hakim, Vəkil ve Məmurlar öz cinayətlərinin üstünün açılmaması məqsədi ilə, 2007-ci ilə qədərdə qanunları pozmağa davam ediblər. Beləki mən məhkəməni udduğundan sonra, oturum statusumun deyşdirilməsi gərəkdiyi halda, əksinə status üçün olan şikayətimi, alman advokatım Lilga 2006-cı ildə geri cəkmişdir. Eyni zamanda bu advokat bir neçə sosialməhkəmələrindəki cinayətləridə ört-basdır etmiş və bunun garşılığında özünə məhkəmədə vəzifə əldə etmişdir. Mənə garşı törədilən, bucür ganun pozuntularını yuzlernən göstərmək münkündür.

### SƏBƏB-4 üçün gısa açıqlama:

AFR-da işgəncələrlə yaşatdırıldığım zaman, mənim və anam Zenfira xanım tərəfindən azərbaycan dövlətinin bir çox təşkilatlarına, ocümlədəndə azərbaycanın Almanyadaki səfirliyinə, Azərbaycanın Xarici İşlər Nazirliyinə, şəxsən Dövlət Komitəsinin sədri Nazim İbrahimov cənablarına dəfələrnən müraciyət olunmuşdur !!! Nəzərinizə çatdırmalıyam ki, nə azərbaycanın Almanyadaki səfirliyi, nə Dövlət Komitəsi, nədəki başqa azərbaycan təşkilatları tərəfindən heç bir yardım edilməmişdir !!! Azərbaycan vətəndaşına öz dövlətinin sahib çıxmadığını görən Almanya, məni zor gucunə dəfələrnən dəlixanaya saldırmaq, iynə vurdurmaq istəyib. Hər dəfə bu ədalətsizliyə ehtiraz edərək, (17 çarəsiz ( özəliklə AİDS ) xəstəliyimin olduğumu və acqalmamın salığıma boyuk zərərlər vuracağını bildiyim halda ) mən aclıq aksiyası keçirdərək azadlığa çıxa bilmişəm. Çünkü mənim Azərbaycan dövlətim, başqa dövlətlərin xətrinə dəyməməg üçün öz vətəndaşlarına sahib çıxmaq istəmir !!!

**Oysa 12 –ilik cinayətin açılmasında və məsələnin düzgün həl edilməsi üçün Azərbaycan dövləti, istər maddi, hüqugi, tibbi və siyasi imkanlara sahibdir.**

Məni Strasburgda 2009-ildə Mayın 15-də zorla dəlixanaya götürdükləri anda, dər hal mən aclıq aksyasına başladım, xəbəridə həmən günü azərbaycan təşkilatlarına çatdırdım !!! Bu aclıq aksyasiyamda 5 gün dəvam etdi, lakin ordaki həkimin mənə dediyi söz bu oldu, ( nəistiyirsən elə onsuzda səsini eşidən yoxdur). Elə bu səbəbdəndə geyri qanuni yolarla dəlixanada 15-ilik zır dəlilərin arasında saxlanıldım. Məhkəməyə şikayət etdimdən sonra 16.06.2009-tarixinə dəlixanadan buraxıldım. Azərbaycanın Fransadaki səfirliyi, və Dövlət Komitəsinin vermiş olduxları cəvabda göstərirlərki, mənə kömək etməg üçün 2009-cu ilin İyul ayında Fransadaki dəlixanada mənimlə marağlanıblar, lakin mən ordan buraxılmış olduğum üçün onların nəsə etməklərinə ehtiyac qalmamış. Bunların bu cəvabı mənə dədəgorgut filimində Arusun Gazanxan barədə dediyi bir sözü xatırladır, ( hadi atlanın, artıg Gazanın beli girildi ). Bundan başqa 15.05.2009-tarixindən ehtibarən bütün Azərbaycan gazetlərində bubarədə məlumat yayılmasını və anam Zenfira xanımın şikayətlərini nəzərə alsaq, elebil muasir texnika dövrümüzdə bu xəbərlərin çatması və azərbaycan dövlət təşkilatlarının hərəkətə keçməsi ( dəvə kərvanlarından istifade edərək ) ancag bir aya munkun olmuşdur.

Anam və mənim tərəfimdən yazlan şikayətlərimizə, Azərbaycan dövlət təşkilatlarının heç biri bu günə gədər hansısa yardım edildiyini göstərə bilməzlər!!!

**Hal hazırda sizdən xaiş edirəm ki, azərbaycanın İstanbuldaki və Rusyadaki səfirliklərindən, Türkiyədə və Rusyada yaşamamda əngəllər çıxmaması üçün, madi imkanlarım olmadığı üçün azərbaycan dövləti hesabına, həkim ekspertlərinin təşkil olunmasına, azərbaycanın İstanbuldaki və Rusyadaki baş elçilikləri tərəfindən yardım etmələrini təmin edəsiniz.**

Dikgətinizə çatdırmaq istəyirəm ki, Almaniya məni 1998-ci ilin Avqust ayından 2007-ci ilin Oktyabır ayınadək **ölkədən qovulma** statusu altında saxlayıb. Bu vaxtlar ərzində, böyük problemlər yaşadığım Berlin şəhərindən kənara çixmağıma icazə verilməyib. Iş icazəsini, iş gücümü itirdikdən sonra verib. Mənə firma açmağım üçün icazəni, adim borclular siyahısına, yani ( şufaya ) düşdükdən sonra verib ki, o da borclular siyahısında olduğum üçün istəsəm belə firma aça bilmərəm. Başqa ölkələrə turist olaraq çixa bilməyimə də icazəni müflis və ağır xəstə salındığımdan sonra veriblər. Köhnə və yeni evimdəki qonşularımdan, həmçinin çevrəmdəki insanlardan aldığım informasyaya görə, Alman polisləri 2004-cü ildən ehtibarən ''mənə yaxşılıq etməg məgsədi ilə'' köhnə evimdəki qonşularımın, yeni evimdəki qonşularımın, həmçinin çevrəmdəki insanların evlərinə gedərək, mənim psixoloji problemlərimin olduğunu və ruhi xəstə olmam barədə şayələr yayıblar !!! Belə görünür ki, Alman dövlətinin siyasətçiləri, yaratdıxları problemi topluma götürməqdə məgsəd, məni ruhi xəstə edib dəlixanaya salmaq, intahara sürükləmək və güya problemin toplumsal olduğunu göstərərəg iz azdırmağa işləyiblər !!! Bütün bunların sübut ede biləcəyimdən narahat olan Alman hakimi, 05.05.2009-cı ildə qeyri-qanuni qərar çıxardarak mənim toxunulmaz olan insan hüquqlarımın idarə edilməsini alman vətandaşlarına verib. Uzun ilər, insanlığda yeri olmayan yöntəmlərlə məni şikəst etməglərinə baxmayaraq, şikəstlik vəsigəsini mənə verməyiblər. Mən məhkəməyə 2008-ci ildə şikayət etdiyimdən sonra, şikəstlik vəsigəsini mənə 05.02.2010-cu ildə veriblər. Məni şikəst etdikləri halda, əməkli pulunu mənə verməg istəməyiblər. Bu ədalətsizliyə qarşı məhkəməyə 2008-ci ildə şikayət etdiyimdən sonra, əməkli pulunun əvəzinə, yeni qanunlarla gətirdikləri grundzicherung adlı əməkli pulunu 2009-cu ilin Noyabırından versələrdə, yeni qanunlara görə grundzicherung adlı əməkli pulu almam mənim almanyadan cıxmağıma icazə verilmir !!! Sual: Almanyanı qorxudan nədirki, bir neçə il ömrüm qaldığı halda, məni istədiyim ölkədə yaşamama icazə vermir ? Bütün bu

ədalətsizliklər, işgəncələr, psixoljiterorlar məni 2010-cu ilin Aprel ayında Almaniyadan başqa ölkəyə gaçmağa məcbur edib. Belə bir halda Almaniya mənə qarşı hansı humanitar dəstəklərinin verdiyini söyləyir ??? Bunların hamısı Alman dövlətinin qurduğu və planlar üzrə apardığı, insan hüquqlarına zidd siyasətdir !!!

Əgər **www.rustemazeri.com** veb adresindəki **09) COURT Germani** qovluğunda yerləşən 80 məhkəmə proseslərini yoxlasanız görərsiniz ki, özəliklə sosial məsələsi ilə məşqul olan hakimlər tərəfindən sağlığımın müdafiyəsi üçün nə 1998-1999 nədəki 2000-ci ildən bu günə qədər heç bir müsbət qərar verilməyib. Tam əksinə psixoloji terorlar yolunun açılmasına imkan yaradan qərarlar verilib və verilir. Bütün hadisələr onu sübut edir ki, **məni** Almaniya dövletinin hüquq mühafize təşkilatlari **zorla intihara sürükləyib**, ağır psixoloji xəstə edib və **ömürlük dəlixanalara salmaq istəyir**. Bunun üçündə etiraz etmə hüquqlarımı əlimdən zorla alıb başqalarına verməkle öz niyyətini açıq aşkar ifadə edir. Sizdən xaiş edirəm ki, 11 illik **terror aksiyasını təcili olarag durdurasınız**. Insan hüquqlarının bu qədər gobutcasına pozulmasına yol verməyəsiniz. Sizin gözleriniz önündə kimsəsiz bir insanın hüquqlarını, insanlıqda yeri olmayan şəkildə pozurlar və gözləriniz önündə bir insanı diri-diri basdırırlar. Əgər alman hakimləri doğurdan da mənə kömək etmək istəsəydi, 12 il üst-üstə yığılan sosial problemləri həll edərdi. 20-dən yuxarı olan bu məhkəmələrin sadəcə maddi xərci, mənə edilə biləcək yardımdan 100 % artıqdır. Bu bir daha və bir daha onu sübut edir ki, alman dövlətinin məqsədi mənə yardım etmək deyil, tam əksinə məni tamamən məhv etmək olub.

**Sizdən xahiş edirəm, www.rustemazeri.com saytındakki materiyalların hanmısını yoxlatdırın !!! Özəliklə 9) COURT Germanideki məhkəmə işlərini.**

**Alman dövleti Avropa İnsan Hakları Məhkeməsinin qanunları qarşısında bu sualıma cəvab verməyə məcburdur : „Mən öz ölkəmdən ( Azərbaycandan ) sağlam gələrək 9 il içində Almaniyanın məhkəmə qərarları ilə həyata keçirilən psixoterrorlara məruz qalıbda xəstə salındım, yoxsa bu ölkəyə ( Almanyaya ) xəstə gəlibdə 9 il içində məhkəmə qərarları ilə Berlində əsir tutularaq, qanun pozulmaları nəticəsində ölümə məhkum edildim???"**

Azərbaycan vətəndaşına qarşı törədilən ölüm cinayətinə, Azərbaycan dövləti olaraq laygeyit qalmayacağınızada inanıram və bu günkü ixtidarın, sabah Azərbaycan tarixi qarşısında bu suala: „ **Başqa dövlətlər tərəfindən Azərbaycan vətəndaşına garşı, insanlığda yeri olmayan 12 ilig işgəncəni gördüyünüzdə, bu psixoloji terorun diyandırılmasında və bu cinayətlərin üstünün açılmasında, günahkarların hüquk qarşısında cəvab verərək cəzalanmalarında nələr etdiniz ???**" cəvab verməyə ehtiyac qalmayacağınada inanıram...

Dünyanın gözü garşısında heç bir ölkənin vətəndaşına bugədər zülüm verildiyi görünməyib!!!

Hörmətlə R.Ismail